Biologiya və coğrafiya fənləri üzrə Respublika Fənn Olimpiadalarının final turunun nəticələri elan edilib. Şagirdlər portal.edu.az platformasında şəxsi kabinetlərinə daxil olaraq yekun nəticələr barədə məlumat ala bilərlər.

Qeyd edək ki, hər iki yaş qrupu üzrə 1-5 və 5-ci yerlə eyni nəticəni göstərən şagirdlər qızıl, 6-15 və 15-ci yerlə eyni nəticəni göstərənlər gümüş, 16-30 və 30-cu yerlə eyni nəticəni göstərənlər bürünc medala layiq görülüblər.

Respublika Fənn Olimpiadaları Kapital Bankın baş sponsorluğu ilə həyata keçirilir.